

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 dekabr 2021-ci il №97 (2605) https://mod.gov.az Qiyməti 30 qəpik


# Əbədi parlayan ömür işığı

Vətənini, xalqını tanıtmağa qadir olan insanlara tarixi şəxsiyyət deyirik.

Tarixi şəxsiyyətlər təkcə tarix yaratmır, eyni zamanda, tarixin səmtini, xalqın sabahlarını müəyyənləşdirməyi bacarır. Ümummilli lider Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.

"Milli mənsubiyyət hər bir insan üçün onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyən ulu öndər Heydər Əliyev çağdaş dövlətçilik, azərbaycançılıq ideologiyasının müəllifi kimi yalnız Azərbaycan vətəndaşlarını deyil, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirdi, xalqımızın Azərbaycan dövlətçiliyi ətrafında sıx birləşməsinə, milli həmrəyliyə nail olmasına müvəffəq oldu.

Ulu öndər Heydər Əliyevin hələ Sovetlər dönəmində Azərbaycana rəhbərliyi dövründə fəaliyyəti xalqımızda milli qürur, milli mənlik şüurunun formalaşmasına, azadlıq, müstəqillik duyğularının tərpənişinə, inkişafına gətirib çıxarmışdı.



Ulu Öndərin əməli və nəzəri fəaliyyətinin mühüm bir hissəsini onun milli dövlətçilik təlimi, milli-mənəvi və ideya-siyasi dünyagörüşü təşkil edir. Onun zəngin siyasi və dövlətçilik irsi zaman məhdudiyyətini aşdı, həmişə sabahlara istiqamətləndi. Bunun nəticəsidir ki, çağdaş Azərbaycanımız Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursla dinamik inkişafdadır. Müasir Azərbaycanın möhkəm özülünü qoyan böyük tarixi şəxsiyyətin ideya dünyası onun davamçılarının yoluna həmişə işıq saçacaq.

1991-ci ildə müstəqilliyimizin bərpasından sonra qət edilən yol tarixi hadisələrlə zəngindir. O vaxtlar müstəqilliyi bərpa edilən dövlətin istər siyasi, istərsə də iqtisadi dayaqlarını möhkəmlətmək asan deyildi, bu, çox çətinliklər bahasına başa gəldi.

1993-cü ilə qədər müstəqilliyimiz labüd dövlət çevrilişi ilə üzləşdi. İstər daxili, istərsə də xarici qüvvələr bu müstəqilliyin varlığına son qoymağa çalışırdı. Belə bir vaxtda xalq böyük tarixi şəxsiyyət, XX əsrin siyasət fenomeni kimi tanınan Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi. Həmin ilin iyununda Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətçiliyi labüd təhlükədən xilas edildi. Ulu Öndər hüquqi dövlət quruculuğu üçün lazım olan siyasi şəraitin formalaşdırılmasına nail oldu.

Ümummilli lider Heydər Əliyevin ideya və fikirləri, həyata keçirdiyi siyasət Azərbaycan şəraitində sosialist ictimai-iqtisadi sistemindən yeni cəmiyyətə keçidin elmi-nəzəri və konseptual əsaslarını yaratdı. İmperiya və sosialist sistemindən azad olaraq müstəqillik yolu tutan, lakin region və dünya güclərinin üst-üstə düşməyən, kəsişən maraqları ilə üz-üzə qalan, qloballaşan dünyada öz yerini axtaran, milli mənafelərini qorumağa çalışan gənc Azərbaycan üçün Ulu Öndərin dövlətçilik təlimi əsl fəaliyyət strategiyası və proqram idi. Uzun illər öz dövlətçiliyindən və milli-mənəvi köklərindən ayrı salınan Azərbaycan xalqının özünəqayıdış və özünütəsdiqində dahi şəxsiyyətin əməli fəaliyyətinin və ideya-siyasi baxışlarının çox böyük rolu olub.

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində ümummilli lider Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra ulu öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi, sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addımlar atıldı. Reallaşdırılan ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş şərait yaradıldı, genişmiqyaslı islahatlara başlandı. Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizlərinin açılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi layihələri həyata keçirildi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi.

1995-ci il noyabrın 12-də keçirilən referendumla müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul edildi. Zaman keçdikcə demokratik yolla prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Qanunvericilik sahəsində aparılan hüquqi islahatlar nəticəsində şəxsiyyət azadlığı və toxunulmazlığına təminat yaradıldı. Siyasi plüralizm, söz və vicdan azadlığına geniş meydan açıldı, mətbuat üzərindən senzura götürüldü. Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edildi. Siyasi-iqtisadi və sosial-mədəni həyatın bütün sahələrində Avropa Şurasının tələbləri baxımından dəyişikliklərə əsaslı zəmin yaradıldı. Azərbaycan 2000-ci il yanvarın 25-də Avropa Şurasına üzvlüyə qəbul olundu.

Ümummilli liderimiz Heydər Əliyevin 1993-2003-cü illərdə gördüyü möhtəşəm işlər Azərbaycana rəhbərliyinin birinci dövründəki xidmətlərinin davamı kimi qiymətləndirilir. Qətiyyətlə deyə bilərik ki, ötən əsrin 90-cı illərinin əvvəllərində qazandığımız müstəqilliyin iqtisadi əsası 70-80-ci illərdə qoyulan möhkəm təmələ, güclü intellektual və iqtisadi potensiala söykənir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcudluğu və şərəfli tarixi də dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Müasir Azərbaycan Ordusunun formalaşması Heydər Əliyevin dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu dəyər başlanğıcını hələ Sovetlər dövründən götürüb. Azərbaycanın tarixi ənənələrinin davam etdirilməsi, gənclərin qəhrəmanlıq ənənələri əsasında formalaşması, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun yaşadılması Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. O, azərbaycanlı zabitlərin Sovet qoşunlarında hansı vəzifələrdə olmasını və vəzifə təyinatlarında necə irəliləməsini daim izləyir, çalışırdı ki, yüksək vəzifəli Sovet zabitləri arasında azərbaycanlılar da olsun. Xidmətləri və təşkilatçılığı ilə fərqlənən bir sıra zabitlərin və generalların daha yüksək və məsuliyyətli vəzifələrə təyin olunmasına Heydər Əliyev yardımçı olub və bunu özü də məmnunluqla xatırlayırdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Bakıda iki ali hərbi məktəb var idi - Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Məktəblərin hər ikisi İttifaq miqyasında sayılıb-seçilən məktəblərdən idi və təhsil almaq üçün İttifaqın ən müxtəlif şəhərlərindən bu məktəblərə axışıb gəlirdilər.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycanın Müdafiə naziri Bəhreyn Müdafiə Qüvvələrinin Baş Komandanı ilə görüşüb





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 10-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Bəhreyn Krallığının Müdafiə Qüvvələrinin Baş Komandanı feldmarşal Şeyx Xəlifə bin Əhməd əl-Xəlifə ilə görüşüb.*

Müdafiə naziri Bəhreyn Krallığı ilə birgə hərbi əməkdaşlıqdan məmnunluğunu ifadə edərək, bu istiqamətdə görülən işlərin inkişaf etdirilməsinin vacibliyini vurğulayıb.

Qonaq həm öz adından, həm də Bəhreyn Kralı adından Vətən müharibəsində qazanılan şanlı Qələbə münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Azərbaycan Ordusunun bütün şəxsi heyətinə təbriklərinin çatdırılmasını xahiş edib.

Görüşdə regionda hərbi-siyasi vəziyyət, hərbi əməkdaşlığın inkişaf perspektivləri və müdafiə sahəsində digər məsələlər müzakirə edilib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Ali Hərbi Məktəbin şəxsi heyəti ilə görüşüb



*Müdafiə nazirinin tapşırığına əsasən, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə ümummilli lider Heydər Əliyevin məktəbin ərazisindəki abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla anılıb.

Kursantların sosial-məişət şəraiti və təlim-tədris prosesi ilə maraqlanan Baş Qərargah rəisinə məruzə olunub ki, Hərbi Məktəbdə dərslər müasir metodlar tətbiq olunmaqla tədris olunur. Bildirilib ki, kursantların hərbi ixtisaslara və peşə bacarıqlarına yiyələnməsi məktəbin əsas fəaliyyət istiqamətlərindən biridir.

General-polkovnik Kərim Vəliyev sinif otaqlarında və təlim sahəsində kursantların nəzəri və praktiki biliklərinin artırılması üçün keçirilən dərs prosesinin gedişatını yoxlayıb. Sonra Hərbi Məktəbin klubunda məktəbin professor və müəllim heyəti ilə görüş keçirilib. Baş Qərargah rəisi çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Qələbədə Ali Hərbi Məktəbin yetirmələrinin xidmətlərini xüsusi qeyd edib, Azərbaycan Ordusunun gələcəkdə daha da güclü olması üçün bugünkü kursantların rolunun mühüm əhəmiyyət kəsb etdiyini bildirib.



Baş Qərargah rəisi kursant heyətinin qayğıları ilə maraqlandıqdan sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq tapşırıqlarını aidiyyəti üzrə vəzifəli şəxslərə çatdırıb.

Sonda kursantlarla birgə nahar edilib.







# Əbədi parlayan ömür işığı

(Əvvəli 1-ci səhifədə)

Heydər Əliyev Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə yüksək rütbəli azərbaycanlı kadrların gətirilməsinə nail oldu. Bu məktəbə qəbul olunanlar arasında azərbaycanlıların sayının artırılması üçün geniş təşkilati işlər aparıldı. Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin ən gərəklisi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbinin açılmasıdır. Bu məktəbin açılması ulu öndər Heydər Əliyevin vaxt ötdükcə öz əhəmiyyətini daha da artıracaq tarixi nailiyyətinin, böyük dühanın xalqının gələcəyinə bağlılığının heç zaman unudulmayacaq nişanəsidir. Çox böyük maneələrə baxmayaraq, milli hərbi ənənələrin canlandırılması və gənclərin hərb işinə cəlb edilməsi üçün fövqəladə əhəmiyyətə malik olan belə bir təhsil ocağının açılması dahi şəxsiyyət Heydər Əliyevin mübarizliyinin, fədakarlığının təntənəsi idi. Bu məktəbin açılmasına nail olmaq üçün Heydər Əliyev həm də İttifaq rəhbərliyi ilə çarpışmadan qalib çıxdı və əslində, bu mübarizliyi ilə həmin məktəbdə təhsil alan azərbaycanlılar üçün də canlı bir örnək oldu.

Müstəqil Azərbaycan dövləti Ulu Öndərimizin şah əsəridir.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev dəfələrlə deyib ki, bütün varlığı ilə Vətəninə və xalqına qırılmaz tellərlə bağlıdır: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcək".



Hamımız üçün fərəhlidir ki, Azərbaycan xalqı üçüncü minilliyə öz müstəqil dövləti ilə qədəm qoydu. Minilliyin başlanğıcında Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı dövlətçilik, iqtisadi-siyasi, sosial-mədəni sahələrdə böyük uğurlar qazandı, dünya birliyində öz yerini möhkəmlətdi.

Ümummilli lider Heydər Əliyev müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi davamçısını yetişdirdi. Dahi rəhbər 2003-cü ilin oktyabrında xalqa müraciətində deyib: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi müddətdə həm Ümummilli Liderin, həm də xalqın ona bəslənən ümidlərini tamamilə doğrultdu. Həmin vaxtdan Azərbaycanda bütün sahələrdə aparılan islahatlar daha da dərinləşdi, ölkəmiz dinamik inkişaf yoluna çıxarıldı. İşğal altında olan torpaqlarımızın azad olunması istiqamətində ümummilli lider Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və uğurla davam etdirdi. Bunun nəticəsidir ki, Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 illik həsrətə 44 gündə son qoyaraq işğal olunan əzəli və əbədi torpaqlarımızı düşməndən azad etdi.

Ali Baş Komandanın o günlərdə hər bir çıxışı, müsahibəsi, xalqımıza etdiyi müraciətlər sanki insanları bir az da ruhlandırırdı, bizi vahid, dəmir yumruğa çevirirdi. Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən ata vəsiyyətini həyata keçirdiyini bəyan etdi. "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!.." Bu gün fəxrlə deyirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tarix yazan qalib liderdir.

Ulu Öndərin ideyaları Azərbaycanın tarixi maraqlarının zəmanətidir...

Azərbaycan bəşərin cığırdaşıdır...

Heydər Əliyev ömrü əbədiyaşar ömürdür. Bəşəriyyət bu ömrün işığını əbədiyyən unutmayacaq...

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi ilə görüşüb



*Dekabrın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəkəriyə Yalçınla görüşüb.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin sədri yeni vəzifəyə təyin olunması münasibətilə qonağı təbrik edib, Azərbaycan-Türkiyə münasibətlərinin hərbi sahədə uğurla davam etdirildiyini diqqətə çatdırıb. İkinci Qarabağ müharibəsinin qazanılmasında Türkiyənin tutduğu ədalətli mövqedən və Türkiyə Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu sahəsindəki rolundan bəhs edən Ali Məclisin sədri bunu dostluq və qardaşlıq əlaqələrinin nəticəsi kimi dəyərləndirib, əlaqələrin bundan sonra da inkişaf edəcəyini vurğulayıb.

Türkiyə Silahlı Qüvvələrinin Azərbaycandakı hərbi attaşesi general-mayor Zəkəriyə Yalçın səmimi qəbula görə minnətdarlıq edib, dost və qardaş ölkə olan Azərbaycanın Naxçıvan Muxtar Respublikasında olmaqdan məmnunluğunu bildirib. Zəkəriyə Yalçın bu gün ölkə prezidentləri tərəfindən qardaşlıq münasibətlərinin daha da inkişaf etdirildiyini və hərbi sahədə əməkdaşlığın genişləndirilməsində səylərini artıracağını qeyd edib.

Sonda xatirə şəkli çəkdirilib.

## Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları ilə taktiki-xüsusi təlim keçirilib



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları ilə "Yaşayış məntəqələrində antiterror əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.

"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən keçirilən təlimdə xüsusi təyinatlı qruplara dinc əhali arasında təxribat törətməyə hazırlaşan şərti düşmənin terror qruplaşmasının zərərsizləşdirilməsi tapşırığı verilib.



Tapşırığı alan xüsusi təyinatlı qruplar zirehli avtomobillərlə və helikopterlərin dəstəyi ilə terrorçuların gizləndikləri yaşayış məntəqəsinə həmlə ediblər.

Basqın zamanı yaralanan hərbi qulluqçuların təhlükəsiz şəkildə təxliyəsi həyata keçirilib.

Xüsusi təyinatlı bölmələrin terrorla mübarizə vərdişlərinin təkmilləşdirildiyi və real döyüş şəraitinə maksimum yaxınlaşdırılan şərtlərlə keçirilən təlimdə yaxın təmasla və müxtəlif silah nümunələri ilə döyüş elementləri yerinə yetirilib.

Düşmənin diversiya-təxribat fəaliyyətlərinin qarşısını alan xüsusi təyinatlılarımız təlimdə qarşıya qoyulan məqsədlərə nail olublar.

Əlahiddə Ümumqoşun Ordu Komandanı general-polkovnik Kərəm Mustafayevin və Türkiyə Silahlı Qüvvələri mənsublarının izlədikləri təlimin sonunda şəxsi heyətin yaşayış məntəqələrində döyüş əməliyyatlarının aparılması bacarıqları yüksək qiymətləndirilib, təlimdə iştirak edən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim edilib.

# Ümummilli lider Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı Hərbi Prokurorluqda anım mərasimi keçirilib



Dekabrın 9-da Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımızın ümummilli lideri, böyük tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 18-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndərin büstü önünə gül dəstələri düzülərək, dünyaşöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda edən bütün şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən geniş bəhs edib.

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən söz açan Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılıb. Onun istefa verdiyi vaxtdan, yəni, 1987-ci ilin oktyabrından 1993-cü ilin iyununda



növbəti dəfə hakimiyyətə qayıdışından olan dövrdə ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın tənəzzülə uğraması, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız dahi şəxsiyyət Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb, bununla da Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub.

Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə son 18 ildə ölkəmizdə müstəsna əhəmiyyətli nəhəng işlər görülüb, hərtərəfli köklü islahatlar həyata keçirilib, bütün sahələrdə misli görünməmiş uğurlar əldə olunub. Prezident İlham Əliyevin dərin zəkası, zəngin bilikləri, mükəmməl rəhbərliyi, qətiyyəti və yorulmaz fəaliyyəti sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşdırılıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm Qələbəmizi şərtləndirib. Nəticədə 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız hərbi və siyasi-diplomatik yolla işğaldan azad edilib. Millətinə xidməti həyat amalına çevirən Prezident İlham Əliyev verdiyi bütün vədləri əməlləri ilə doğruldaraq, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirməklə xalqın sonsuz məhəbbətini qazandığını vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev dövlətimizin başçısının növbəti dəfə də vədinə əməl etməsindən, işğal altında olan tarixi ərazilərimizin azad olunmasından, bu şərəfli missiyanın həyata keçirilməsi zamanı müşahidə olunan bənzərsiz lider-xalq-ordu vəhdətindən, Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazdıqlarından ətraflı danışıb.

Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl siyasi strategiyası və gərgin əməyi ilə xalqın əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına və 44 günlük döyüş əməliyyatlarına rəğmən, dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin edilir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, mədəniyyətimizin bütün dünyaya tanıdılmasında hərtərəfli biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi və səmimiliyi ilə seçilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Mehriban xanımın respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü nəhəng işlər dövlətimizin tərəqqisinə və xalqın rifahının yaxşılaşdırılmasına mühüm töhfələr verməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə, Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü Azərbaycana həsr edərək milləti qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması ulu öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman böyük ehtiramla yad ediləcək.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**8 dekabr 2021**

Dekabrın 8-i saat 14:35-dən 15:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsində yerləşən mövqelərindən Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqəsində yerləşən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan istifadə etməklə heç bir səbəb olmadan intensiv atəşə tutub.

Qarşı tərəfin susdurulması məqsədilə Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

Azərbaycan Ordusunun şəxsi heyəti və texnika baxımından itkisi yoxdur.

Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

**9 dekabr 2021**

Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində dekabrın 8-i gecə saatlarında Ermənistan silahlı qüvvələrinin törətdiyi növbəti təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Əliyev Asif Adil oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olan hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir!

Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən müvafiq tədbirlər nəticəsində qarşı tərəf susdurulub.

Baş verən növbəti gərginliyə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

**9 dekabr 2021**

Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində növbəti təxribata əl atıb.

Dekabrın 9-u saat 15:00 radələrində Ermənistan hərbi bölmələri Basarkeçər rayonu istiqamətində yerləşən döyüş mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonundakı mövqelərini atəşə tutub.

Ordumuzun bu istiqamətdə yerləşən bölmələri tərəfindən müvafiq tədbirlər görülüb.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**10 dekabr 2021**

Ermənistan silahlı qüvvələrinin bölmələri dövlət sərhədinin Basarkeçər rayonu ərazisində əlavə canlı qüvvə və döyüş texnikası cəmləşdirməklə növbəti təxribata əl atıb.

Qarşı tərəf dekabrın 10-u saat 12:00-dan etibarən Kəlbəcər rayonu ərazisində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəş altında saxlamağa cəhd edib.

Bölmələrimiz tərəfindən qısa müddət ərzində görülən cavab tədbirləri nəticəsində qarşı tərəf susdurularaq, onun təxribatxarakterli fəaliyyətləri dayandırılıb.

Əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Döyüş və mənəvi-psixoloji hazırlığımız yüksəkdir



*İlk tank əleyhinə silahlar döyüş səhnəsində Birinci Dünya müharibəsi zamanı görünüblər. Həmin dövrdən günümüzədək tank əleyhinə silahlar zirehdələn tüfəngdən idarəolunan raket komplekslərinə qədər inkişaf yolu keçib. Təbii ki, bu silahların rəqibləri olan bütün hərbi təyinatlı avtomobillər və zirehli tank texnikaları da müasirləşib. Məhz buna görə də klassik müharibələr yerini müasir taktika ilə yeni nəsil silahlara buraxır. Bir məqamı da unutmayaq ki, müharibə taktikaları, silahlar və müdafiə vasitələri dəyişsə də, mərmi ilə zireh arasındakı qarşıdurma dəyişməz olaraq qalır. 44 günlük Vətən müharibəsində bunun şahidi olduq.*

Müharibədə Azərbaycan Ordusu yüksək peşəkarlıqla müasir silah sistemlərini tətbiq edərək qalib gəldi. Hərtərəfli düşünülən fəaliyyətlərlə yerinə yetirilən döyüş tapşırıqlarının nəticəsində düşmən üzərində inamlı Qələbə qazandıq. Təbii ki, Qələbənin qazanılmasında Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri ilə bərabər, tank əleyhinə bölmələrindən döyüşlərə cəlb edilən heyətlər də düşmənin canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsi tapşırıqlarını peşəkarlıqla yerinə yetirdilər.

Döyüşlərdə iştirak edən baş leytenant Pərvin Tağızadə, gizir Abasət Mirzəyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçular kiçik çavuş Elnur Məmmədov, kiçik çavuş Məmməd Dünyamalıyev və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nurəddin Nəbiyev müxtəlif adda təltiflərə layiq görülüblər. Müharibədə yaralanaraq ehtiyata buraxılan əsgər Nurəddin Nəbiyevdən başqa döyüşlərdə iştirak edən digər hərbi qulluqçular hazırda xidmətlərini davam etdirir və qazandıqları döyüş təcrübəsini gənclərə öyrədir, müharibə xatirələrindən danışırlar.

"Təlimdə tər, döyüşdə zəfər" prinsipi ilə keçirilən təlimlərdə Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələri peşəkarlaşaraq döyüşlər zamanı düşmən texnikalarının dəqiqliklə məhv edilməsi tapşırıqlarını uğurla yerinə yetirdilər. Döyüş atışlı təlimlərdə, məşğələ və ixtisas toplantılarında əldə edilən nailiyyətlər



özünü Vətən müharibəsində doğruldaraq Qələbənin qazanılmasında mühüm rol oynadı.

Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə bölmələrində şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığının yüksək səviyyədə olması işi də daima diqqətdə saxlanılır. Bölmələrdən birində xidmət edən zabitlərdən Ruzi Əsgərov, Mahir Fərzəliyev, Ramal Hüseynov və Telman Niftəliyev hərbi hissədə nümunəvi xidmət üçün yaradılan şəraitdən və keçirilən təlimlərdən qürurla danışdılar. Zabitlərimiz həm də ona görə qürurlu idilər ki, onların hərbi hissəsindən döyüşlərdə iştirak edən tank əleyhinə heyət düşmənin canlı qüvvəsini və hərbi texnikalarını tank əleyhinə idarəolunan raket kompleksləri ilə məhv edib. Zabitlər onu da qeyd etdilər ki, döyüşlərdə heyətin köməyinə peşəkarlıqları ilə yanaşı, sürətli manevr edərək istənilən hava şəraitində düşmənin hərəkətsiz və hərəkətdə olan tank və digər zirehli texnikalarını məhv etmək imkanına malik qabaqcıl texnologiyalı silah sistemləri də çatıb. Bu tank əleyhinə idarəolunan raket kompleksləri ilə düşmən qurğularına səmərəli atəş açmaq, kəşfiyyat xarakterli fəaliyyətlər yerinə yetirmək və yerüstü müşahidə məntəqələrindən müşahidə edilməyən hədəfləri məhv etmək mümkündür. Bu gün də döyüşdə qazanılan təcrübədən bəhrələnərək şəxsi heyətə müasir silah sistemlərindən istifadə bacarıqları aşılanır.

Bir neçə gün əvvəl "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən Əlahiddə Ümumqoşun Ordunun artilleriya, reaktiv, minaatan və tank əleyhinə batareyaları ilə keçirilən döyüş atışlı taktiki təlimlərdə bölmələrin uzlaşmasına və səhra vərdişlərinin yüksəldilməsinə, taktiki və atəşlə manevrinə geniş yer verilib. "Düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası zamanı artilleriya bölmələrinin fəaliyyəti" mövzusunda keçirilən təlimlərdə isə tank təhlükəli istiqamətdə tank əleyhinə batareyalar və düzünə tuşlamaya çıxarılan toplar şərti düşmənin zirehli texnikalarını sıradan çıxarıb.

Əlahiddə Ümumqoşun Ordunun tank əleyhinə batareyaları ilə praktiki atışlardan öncə Naxçıvan Qarnizonunun Simulyasiya mərkəzində xüsusi proqram təminatına malik kompüter və məşq qurğularında müvafiq tapşırıqları icra edib, virtual təlim meydançasında döyüş sursatı və yanacaq sərf etmədən müxtəlif şəraitdə atış və atəşin idarəolun-



ması həyata keçirilib. Təlimlərin sonunda atəş göstəricilərinin dəqiqliyi müqayisə edilib, şəxsi heyətin bilik səviyyəsini müəyyən edən qiymətləndirmə aparılıb və nəticələrə uyğun olaraq bölmələrin fəaliyyəti yüksək qiymətləndirilib.

Təlimlərdə tank əleyhinə bölmələrin əsgərlərindən Rahil Əzizov, İbadət Baxışov, Nicat Nəsibov, Məhəmməd Kərimov, Fərid Ağayev, Baloğlan Qurbanov, Cəlal Bilalov, Vüsal Abdullayev, İsgəndər Muxammatov, Mirəli Əhmədov və İsmayıl İsmayılzadə fərqlənərək döyüş tapşırıqlarını uğurla yerinə yetirib, hədəflərin məhv edilməsində bacarıq nümayiş etdiriblər.



Plana uyğun olaraq Əlahiddə Ümumqoşun Orduda keçirilən "Ən yaxşı tank əleyhinə batareya" adı uğrunda yarışda heyətlərdən fərdi və qrup halında normativlər götürülən zaman verilən tapşırıqları böyük həvəslə icra etmələri yüksək döyüş hazırlığından xəbər verir. Yarışda tank təhlükəli istiqamətdə açılma hədlərinin tutulması, şərti düşmənin hərəkətli və hərəkətsiz hədəflərinin məhv edilməsi tapşırıqları yerinə yetirilib. Yarışın ümumi nəticələrinə əsasən, tank əleyhinə idarəolunan raketlər batareyası birinci olub. Qalib batareyanın şəxsi heyəti Əlahiddə Ümumqoşun Ordu Komandanlığı tərəfindən mükafatlandırılıb.

"Ən yaxşı tank əleyhinə batareya" adına layiq görülən zabit Oğuz Ağayev qeyd etdi ki, bütün bu uğurlara şəxsi heyətin taktiki-texniki və ixtisas hazırlığının yüksəldilməsi, metodiki vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən məşğələ və toplantılarla nail olunub. "Daim ixtisas biliklərini və praktiki bacarıqları artırılan əsgərlərimiz yarışın şərtlərinə vaxtında və düzgün əməl etməklə batareyamıza "Ən yaxşı" adını qazandırdılar. Yarışda batareyanın hər bir hərbi qulluqçusu əzmkarlıq nümayiş etdirdi. Gizir Təbriz Həsənov, əsgərlərdən Növqar Məmmədov, Yusif Seyidzadə, Daşqın Alməmmədov və digərləri isə fərqlənənlərdən oldular. Mənəvi və fiziki cəhətdən sağlam, döyüş hazırlığı cəhətdən peşəkar və yenilməz olmaq tank əleyhinə bölmələrimiz də daxil olmaqla Əlahiddə Ümumqoşun Ordunun bütün birləşmə, hissə və bölmələrində xidmət edən şəxsi heyəti əhatə edir. Hər birimizin döyüş və mənəvi-psixoloji hazırlığı yüksəkdir".

Bu gün dövlət qayğısı ilə əhatə olunan və yüksək mənəvi keyfiyyətlərə malik olan hərbi qulluqçuları xalq-ordu birliyindən güc alaraq ən çətin tapşırıqların icrasına daim hazırdır. Necə ki, 44 günlük Vətən müharibəsində bunu bacardıq. Uzun illər müxtəlif mərhələlərdən keçərək formalaşan Əlahiddə Ümumqoşun Ordunun qazanılan şanlı Qələbədə xüsusi payı vardır. Vətən müharibəsində iştirak edən hər bir Vətən övladının əməyi dövlətimiz tərəfindən yüksək qiymətləndirilir, hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür.

Dövlət qayğısını və xalqın dəstəyini hər zaman hiss edən ordumuz həm də ən müasir silah sistemləri ilə təchiz edilir. Məhz belə tank əleyhinə bölmələrin arsenalında mövcud olan qabaqcıl texnologiya ilə hazırlanan silah və texnikalar qeyd olunanlara əyani misaldır. Dünya hərb elmində "XXI əsrin müharibəsi" adını qazanan 44 günlük müharibədə düşmənin onilliklərlə qurduğu mürəkkəb istehkamlarını darmadağın edən rəşadətli Azərbaycan Ordusu əsl peşəkarlıq, yenilməz əzm nümayiş etdirdi. Tank əleyhinə silahların günümüzədək inkişaf edərək müharibələrin taleyini necə dəyişdiyini də əyani olaraq göstərdi. Bu texnologiyalar o dərəcədə inkişaf edib ki, artıq zirehli tank texnikalarını helikopterlərə quraşdırılan raket kompleksləri və pilotsuz uçuş aparatları ilə məhv etmək daha da asanlaşıb. Deməli hücum təyyarələri və helikopterləri, pilotsuz uçuş aparatları və dronlar da mərmi-zireh qarşıdurmasında qalibin kim olduğunu əyani olaraq təsdiqləyir. İkinci Qarabağ savaşında düşmən texnikalarının məhv edilməsində pilotsuz uçuş aparatları önəmli rol oynadı, erməni istehkamlarını məhv etməyə kömək etdi. Sevindirici haldır ki, silah arsenalımızda mövcud olan ən müasir silah sistemləri və hərbi texnikalar peşəkar hərbçilərimizə təhkim edilib.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Əbədiyaşar Ulu Öndərin xatirəsi anıldı



Ümummilli lider Heydər Əliyevin anım günü tədbirlərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları, xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və müəllim heyəti, Silahlı Qüvvələrin Hərbi Akademiyasının, veteran təşkilatlarının, müharibə veteranlarının, şəhər muzeylərinin nümayəndələri iştirak etdilər.

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Tədbir iştirakçılarına Heydər Əliyevə həsr edilən videoçarx təqdim edildi.

"N" hərbi hissəsində "Əbədiyaşar komandan" adlı tədbirdə çıxış edən Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov Ulu Öndərin ordu quruculuğunda apardığı siyasətindən, uzaqgörənliyindən, qətiyyətli siyasi liderliyindən söz açdı. "Azərbaycan Respublikasının sürətli inkişafı məhz Ulu Öndərin sayəsində başlandı. İkinci dəfə hakimiyyətə gələndən cəmi bir neçə il sonra, ölkəmiz "Əsrin müqaviləsi"nə imza atıb və bu Azərbaycanın adını bütün dünyaya eşitdirdi. SSRİ-nin süqutundan sonra MDB ölkələrində çətin vəziyyət yarandı. Lakin xalqımızın Heydər Əliyev kimi dahi şəxsiyyəti olduğu üçün qısa bir zamanda vəziyyət stabilləşdi. Milli ordumuzun yenidən təməli qoyuldu. Və bu ordu Zəfər qazandı", - zabit dedi.

Hərbi hissənin zabiti mayor Ceyhun Məmmədov deyilən sözlərə qoşularaq əlavə etdi ki, Ümummilli Liderin ordu quruculuğu siyasətində gördüyü ən önəmli işlərdən biri Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması oldu.

"Ulu Öndərin gərgin əməyi sayəsində Azərbaycan Milli ordusu yenidən quruldu. Belə ki, peşəkar hərbi kadrlar hazırlamaq üçün ölkəmizdə xüsusi təyinatlı hərbi təhsil müəssisələri yaradıldı. Ümumiyyətlə, bu gün ordumuzun əsasını təşkil edən zabit heyəti hərbi təhsillərini bu lisey və məktəblərdə alıblar. Həmin zabitlərdi ki, 2020-ci il noyabrın 8-də Azərbaycanın adını dünya hərb tarixinə qızıl hərflərlə yazdılar", - deyə zabit Ceyhun Məmmədov bildirdi.

"Dədə Heydər" muzeyinin yaradıcısı Ramiz Xəlilov bildirdi ki, Azərbaycan xalqı çox xoşbəxt xalqdır ki, Heydər Əliyev kimi şəxsiyyəti var. "Doğma Vətənimizdə azad və firavan yaşadığımıza, bütün dünyada Azərbaycanın tanınmasına və nəhayət, doğma torpaqlarımızın işğaldan azad olunmasına görə ümummilli lider Heydər Əliyevə və onun siyasətinin davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevə minnətdarıq".

Qeyd olundu ki, Ulu Öndərin ən son arzusu işğal altında olan torpaqları azad görmək idi. Heydər Əliyevin varisi, siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 44 gün davam edən "Dəmir yumruq" əks-hücum əməliyyatı zamanı torpaqlarımızı düşmən işğalından azad etdi. Banisi ümummilli lider Heydər Əliyev olan müasir Azərbaycan Ordusu Zəfər qazanaraq, dövlətimizin gücünü bütün dünyaya nümayiş etdirdi.

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeologiya və Mədəniyyət Mərkəzinin solistləri xalqımızın ümummilli lideri Heydər Əliyevə həsr olunan və vətənpərvərliyi tərənnüm edən musiqi nömrələri ifa etdilər. Mərasim iştirakçılar xatirə şəkilləri çəkdirdilər.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**



"Yaddaşlarda yaşayan Lider" adlı anım tədbirində Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi, ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Şanlı zəfərimizin təməli - ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti" adlı məruzə ilə çıxış etdi.



Muzey rəisi bildirdi ki, ölkəmizdə müasir ordu quruculuğu prosesi məhz Ulu Öndərin adı ilə bağlıdır. "Tarixi şəxsiyyətlərin böyüklüyü, əslində, onların əməllərinin əhəmiyyəti ilə, öz xalqının tarixində oynadıqları rolla, cəmiyyətin inkişafına göstərdikləri təsirin miqyası ilə ölçülür. Belə dünya səviyyəli dövlət adamlarından söhbət düşəndə istər-istəməz ümummilli lider Heydər Əliyev və onun Azərbaycan naminə gördüyü quruculuq işləri yada düşür. Hələ sovet dövründə Ulu Öndər uzaqgörənliklə ölkəmizdə gənclərin hərbi təhsilə və xidmətə yönləndirilməsi üçün böyük işlər görmüşdür. Ümummilli liderimiz Heydər Əliyev öz fitri istedadı, dərin zəkası, bilik və bacarığını Azərbaycan xalqının firavan yaşaması həsr edərək, dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmağı bacardı. Xalqın çağırışı ilə yenidən ölkə rəhbərliyinə qayıdışı ölkədə baş alıb gedən xaos və anarxiyanın, hakimiyyətsizliyin qarşısını aldı. Vətən müharibəsində qazandığımız qələbə də elə məhz ulu öndər Heydər Əliyevin ordu quruculuğu üçün gördüyü işlərin nəticəsidir".

Muzey rəisi Ə.Qənizadə məruzəsinə davam edərək vurğuladı ki, Azərbaycan Ordusu beynəlxalq reytinq təşkilatlarının rəyinə əsasən ən güclü ordular sırasındadır. "Ulu Öndərin yaratdığı və formalaşdırdığı cənab Ali Baş Komandan İlham Əliyevin inkişaf etdirdiyi Azərbaycan Ordusu nəyə qadir olduğunu Vətən müharibəsində nümayiş etdirdi".

Tədbirdə Azərbaycan Hərb Tarixi Muzeyinin baş elmi işçisi Vahid İsmayılov "Ulu öndər Heydər Əliyevin xarici siyasət strategiyasının əsas aspektləri" mövzusunda çıxış edərək bildirdi ki, ümummilli lider Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə diqqət yetirilmişdir. "1994-cü il mayın 4-də "Sülh Naminə Tərəfdaşlıq" proqramının çərçivə sənədinin hazırlanması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Ulu Öndərin dövlət quruculuğu kursunu Prezident İlham Əliyev bu gün böyük uğurla inkişaf etdirir".

Mərasimin sonunda iştirakçılar ulu öndər Heydər Əliyevə həsr olunmuş zaldakı ekspozisiyalarla tanış oldular.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Şanlı Qələbəmizə həsr olunan Zəfər paradından bir il ötdü

Ötən il dekabrın 10-da paytaxt Bakının Azadlıq meydanında Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı Qələbəyə həsr olunan ilk Zəfər paradı keçirildi.

Azərbaycan Ordusu cəmi 44 gün ərzində Ermənistan üzərində parlaq qələbə qazanaraq düşməni məğlub etdi. İşğala son qoydu. Cəsur döyüşçülərin mətin addımlarla irəliləməsi nəticəsində hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri düşməni darmadağın edərək, tarixi ədaləti bərpa etdi.

Hərbi parad Vətən müharibəsində qazanılan Qələbə xalqımızın sevincinin göstəricisi olmaqla yanaşı, ordumuzun güc və qüdrətinin bütün dünyaya nümayişi oldu.

Keçirilən Zəfər paradında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev, birinci vitse-prezident Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan iştirak etdilər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paraddakı çıxışında deyib: "...Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq".



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəfər paradındakı çıxışında hər zaman azərbaycanlı qardaşlarının yanında olduğunu bildirib: "Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı 30 il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq".

Paradda 3000 nəfərdən artıq şəxsi heyət, 150-dək hərbi texnika, həmçinin silahlanmaya yeni qəbul edilən müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, hərbi gəmi və katerlər nümayiş olundu. Həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu.

Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi. Bu möhtəşəm mənzərə hər bir Azərbaycan vətəndaşında və hər bir azərbaycanlıda qürur hissi oyatdı.

27 sentyabr tarixindən başlayan və cəmi 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılan misilsiz hərbi nailiyyət oldu. Azərbaycan xalqının tarixinin ən şanlı səhifələrindən birini yaradan Zəfər paradı qüdrətimizi bütün dünyaya bir daha nümayiş etdirdi.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

# Nizami Gəncəvinin 880 illiyinə həsr edilən tədbir keçirildi

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin 880 illiyinə həsr edilən tədbir keçirildi.*



Tədbirdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin şəxsi heyəti, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi və ictimaiyyət nümayəndələri iştirak etdi.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2021-ci ilin klassik Azərbaycan şairi "Nizami Gəncəvi ili" elan edilməsinin azərbaycançılığa, onun tarixinə və mədəniyyətinə olan ehtiramın təzahürü olduğunu qeyd etdi. Bildirdi ki, dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açan nadir şəxsiyyətlərdəndir. "Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilən parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə qeyd edilib. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirib. Bu baxımdan "Nizami" filminin çəkilməsi, "Xəmsə" kompleks abidələrinin ucaldılması, Nizami məqbərəsinin təmiri və qorunması, "Xəmsə"nin yeni tərcümə və nəfis tərtibdə nəşr edilməsi, dünyanın bir çox şəhərlərində Nizami Gəncəvinin heykəllərinin ucaldılması, Bakı Metropoliteninin stansiyalarından birinə "Nizami" adının verilməsi və digər tədbirlər Heydər Əliyevin dahi Azərbaycan şairinə olan diqqət və qayğısının bariz nümunəsidir".

Mərkəz rəisi vurğuladı ki, Ümummilli Liderin hakimiyyətdə olduğu dövrdə Azərbaycan mədəniyyətinə, milli-mənəvi dəyərlərə hər zaman xüsusi diqqət yetirilib. "Aparılan siyasətin məntiqi davamıdır ki, bu gün ölkə üzrə mütəfəkkir şairimizin irsini təbliğ edən silsilə tədbirlər keçirilir. Azərbaycan Ordusunda dahi şairin xatirəsinə həsr olunan silsilə tədbirlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəlməsində mühüm rol oynayır".

Polkovnik Müslüm Nəsirov bildirdi ki, Nizaminin əsərlərində dərin vətənpərvərlik duyğusu görürük. "Xalqa, insana qarşı məhəbbət, insan ruhunun dərinliklərində qala bilmək ustalığı Nizamiyə öz dahi və inamlı qələmi ilə ən böyük sənət əsərləri yarada bilməsinə imkan vermişdir. Elə əsərlər ki, humanist bir ruhla, həyat eşqilə doludur. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən Prezident İlham Əliyev də qədim Gəncəyə, ölməz Nizami irsinə xüsusi ehtirama, məhəbbətlə yanaşır...".

Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin ifasında Nizami Gəncəvinin əsərlərinə bəstələnmiş muğam və mahnılardan ibarət kompozisiya tədbir iştirakçılarına təqdim olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

*Ordenli igidlərimiz*

# "Vətən candan şirindi"



Yolumuz Qubadlıyadı. Xidməti vəzifələrini dağlar qoynunda yerinə yetirən zabit və əsgərlərlə görüşmək üçün sübhdən yola çıxdıq.

Qubadlıya yolumuz Vətən müharibəsi zamanı ermәni qəsbkarlarından azad olunan Cəbrayıl və Zəngilan rayonlarından keçirdi. Yolboyu erməni vandallarının şəhər və kəndlərimizi necə vəhşicəsinə dağıtdığını görəndə dəhşətə gəldik. Dəhşətimizi qəzəb, nifrət əvəz etdi. İşğalçıların torpaqlarımızdan qovulmasının sevincini yaşadıq.

Düşüncələr ağuşunda artilleriyaçıların yerləşdiyi mövqeyə çatdıq. Belə gözəl diyarda, doğma Qubadlıda xidmət etdiklərinə görə zabit və əsgərlərin üzü gülürdü. Hiss olunurdu ki, onlar qalib ölkənin qalib hərbçiləridir. "Şəxsi heyətin ovqatı da olduqca yüksəkdir", - deyərək sözə başlayan Vətən müharibəsi iştirakçısı baş leytenant Tural Quliyev 20 avqust 1994-cü ildə Beyləqan rayonunun Mil qəsəbəsində anadan olub. Orta təhsilini bitirdikdən sonra hərbçi olmaq arzusu ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. Artilleriyaçı ixtisasına yiyələnib. 2017-ci ildə hərbi təhsilini başa vuran Tural Quliyev "N" hərbi hissəsində taqım komandiri vəzifəsində xidmətə başlayıb. Keçirilən təlim-məşqlərdə daim döyüş hazırlığını, təcrübə və səriştəsini artırıb. Bacarıqlı zabit düşmən təxribatı nəticəsində başlanan Vətən müharibəsində fəal iştirak edib.

- Erməni işğalçıları mövqelərimizi səhər ertədən atəşə tutdular, - deyə baş leytenant keçdiyi döyüş yolundan qısaca söhbət açdı. - Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatı başladı. Füzuli rayonunun ərazilərini işğaldan azad etmək üçün döyüşlərə atıldıq. Yağılar bu istiqamətdə ciddi müqavimət göstərir, geri çəkilmirdilər. Hiss olunurdu ki, düşmən ötən illər ərzində burada möhkəm sədlər qurub. Amma nəyin bahasına olursa-olsun, torpaqlarımızı işğaldan azad etməliydik. Ermənilərin keçilməz hesab etdikləri mövqeləri keçməliydik. Buna görə də hücumlarımızı gücləndirib ermənilərin bütün mövqelərini darmadağın etdik. Nə qədər cəhd göstərsələr də, onlar artilleriya atəşlərindən yayına bilmədilər. Təəssüflər olsun ki, Füzuli rayonunun Arayatlı kəndi uğrunda gedən döyüşdə yaralandım, bir müddət döyüşlərdə iştirak edə bilmədim. Lakin sağaldıqdan sonra yenə də döyüşə - şəxsi heyətin yanına qayıtdım.

Şəxsi heyətlə söhbətimiz zamanı öyrənirik ki, baş leytenant Tural Quliyev savaşda böyük hünər və cəsarətlə vuruşub. Onun istiqamət verdiyi mərmilərin heç biri hədəfdən yayınmayıb. Getdikcə zəifləyən düşmən ordumuzun gücü və qüdrəti qarşısında dayana bilməyib geri çəkilib. Vətən övladı Azərbaycan Ordusunun zabiti kimi üzərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib.

İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə və cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə baş leytenant Quliyev Tural Adil oğlu "Qarabağ" ordeninə, həmçinin "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Torpaqlarımız azad ediləcəkdi, illər uzunu bunu düşmən də bilirdi. Azərbaycan xalqının iradəsini, Ali Baş Komandanın qətiyyətini görürdü. Bütün bunları görən, müharibənin qaçınılmaz olduğunu bilən düşmən 30 ilə yaxın mühəndis-istehkamlarını gücləndirməklə məşğul idi. Ali Baş Komandan İlham Əliyev oktyabrın 17-də xalqa müraciətində dedi: "30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi". Tural və onun timsalında Vətəni candan çox sevən oğullar Qələbə şüarları ilə torpaqlarımızı azad etdi. Yaralansalar da, "Vətən candan şirindi" deyib torpaq həsrətinə son qoydular.

Baş leytenant Tural Quliyev bu gün yenə də yüksək ovqatla xidmətini davam etdirir. İnanırıq ki, bacarıqlı gənc zabiti qarşıda yeni-yeni uğurlar gözləyir.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə-Qətər münasibətləri müttəfiqlik səviyyəsində dinamik inkişafdadır



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qətər Dövlətinə səfər edib.

Türkiyə KİV-ləri xəbər verir ki, Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin dəvəti ilə həyata keçirilən rəsmi səfər çərçivəsində iki ölkə arasında 15 anlaşma imzalanıb.

Türkiyə-Qətər Ali Strateji Komitənin yeddinci toplantısında iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan səfər çərçivəsində Doha şəhərində yerləşən Qətər-Türkiyə ortaq hərbi hissəsinə baş çəkib, hərbçilər qarşısında çıxış edib.

Prezident Rəcəb Tayyib Ərdoğan diqqətə çatdırıb ki, Türkiyə Qətərdə sabitliyin və inkişafın qorunmasına xüsusi əhəmiyyət verir.

Qeyd edək ki, Qətər Dövləti Yaxın Şərq bölgəsində Türkiyənin ən etibarlı müttəfiqidir. Hazırda Türkiyə şirkətləri Qətərdə 150 layihədə iştirak edirlər. Həmin layihələrin maliyyə dövriyyəsi təqribən 18 milyard ABŞ dolları civarındadır. Rəsmi Doha Qətərə qarşı tətbiq olunan ədalətsizliklərin dəf edilməsində Türkiyənin sərgilədiyi ədalətli mövqeyi hər zaman yüksək dəyərləndirib.

## Rusiya Prezidentinin mətbuat katibi: ABŞ ilə münasibətlərdə "istiliyin" yarandığını demək hələ mümkün deyil



Rusiya Prezidenti Vladimir Putin və ABŞ Prezidenti Co Bayden arasında dekabrın 8-də baş tutmuş videogörüşdən sonra iki ölkə arasında münasibətlərdə "istiliyin" yarandığını demək hələ mümkün deyil.

Bunu jurnalistlərə açıqlamasında Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib. O qeyd edib ki, optimizm üçün hələlik əsas yoxdur.

D.Peskovun sözlərinə görə, buna baxmayaraq, prezidentlər Avropada strateji təhlükəsizlik məsələləri ilə bağlı öz nümayəndələrini təyin edəcəkləri və bu nümayəndələrin operativ olaraq danışıqlara başlayacaqları barədə razılığa gəliblər.

## Hindistan ordusunun müdafiə qərargahının rəisi və arvadı helikopter qəzasında həlak olub





Hindistanda helikopter qəzası nəticəsində həlak olan 13 nəfər arasında ölkənin müdafiə qərargahının rəisi general Bipin Ravat və həyat yoldaşı da var.

Helikopterdə general Bipin Ravat və onun həyat yoldaşı ilə yanaşı, generalın köməkçiləri, tabeliyindəki zabitlər olublar. Şahidlərin sözlərinə görə, yerə çırpılan helikopterdə yanğın baş verib.

Qeyd edək ki, Hindistan ordusuna məxsus, göyərtəsində 14 nəfərin olduğu "Mi-17V5" helikopteri yerli vaxtla günorta saat 12:00 radələrində Kunur rayonunda dağlıq meşə sahəsində qəzaya uğrayıb. Yerli ekspertlər qəzaya hava şəraitinin və ya texniki problemlərin səbəb olduğunu güman edirlər. Hindistan Hərbi Hava Qüvvələrinin komandanı da hadisə yerinə yollanıb.

General Bipin Ravat 2015-ci il fevralın 3-də Dimapur şəhərində baş vermiş helikopter qəzasından ağır xəsarət alsa da, sağ çıxa bilmişdi. O, Hindistan ordusunda yeni təsis edilən müdafiə qərargahının ilk rəisi kimi, ötən ilin yanvarında vəzifəsinin icrasına başlayıb. Ondan əvvəl isə ordu komandanı vəzifəsində xidmət edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Mühəndis qoşunlarının fəaliyyəti haqqında məlumat





*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri Türkiyənin hərbi istehkamçıları ilə birgə azad olunmuş ərazilərimizin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərini davam etdirir.*



Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yollar minalardan və qar örtüyündən təmizlənir, həmçinin dağlıq və çətin keçilən ərazilərdə yerləşən bölmələrimizin mövqelərinə yeni təminat yolları çəkilir.

Azad olunmuş ərazilərimizdə mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində dekabrın 1-dən 10-dək 342 ədəd piyada və tank əleyhinə minanın aşkar olunaraq zərərsizləşdirilməsi ilə 96.7 hektar ərazi təmizlənib.

Ümumilikdə azad olunmuş ərazilərdə bu günədək mühəndis qoşunları tərəfindən 17202 mina və partlamamış döyüş sursatı aşkar olunaraq məhv edilib, 13273 hektar ərazi minalardan təmizlənib, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə 628 kilometr yol çəkilib.

Yaşayış məntəqələrimizin, əkin üçün yararlı olan ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərinə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin sərəncamına verilən Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyindəki ASFAT AŞ şirkəti tərəfindən istehsal olunan "MEMATT" (Mexanik Mina Təmizləmə Təchizatı) texnikası da cəlb edilib.

Azad olunmuş ərazilərimizdə mühəndis təminatı üzrə tədbirlər davam etdirilir.

## “Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistana sülh müqaviləsi ilə bağlı tövsiyəsi Azərbaycanın siyasi mövqeyi ilə üst-üstə düşür

*Beynəlxalq Ədalət Məhkəməsi Ermənistana qarşılıqlı şəkildə sülh müqaviləsinin bağlanması, delimitasiya və demarkasiya məsələsinin həllini tövsiyə edib.*

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Elnur Məmmədov jurnalistlər üçün keçirilən brifinqdə bildirib.

Nazir müavini vurğulayıb ki, Məhkəmə Ermənistana qarşılıqlı şəkildə sülh müqaviləsinin bağlanması, delimitasiya və demarkasiya məsələsinin həllini tövsiyə etmişdi. Bu çağırış da məhz Azərbaycanın siyasi mövqeyi ilə üst-üstə düşür. Lakin növbəti illərdə qaldırılan məsələlərə baxılacaq və hüquqi qiymət veriləcək. Bu həqiqətlərin məhkəmədə sübut edilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik.

Azərbaycanın Ermənistana qərarlara riayət etməsi və qarşıdurmaların qarşısını alması üçün açıq şəkildə çağırış etdiyini vurğulayan E.Məmmədov deyib: "BMT-nin məlum qətnamələri 30 il kağız üzərində qaldı. Beynəlxalq Ədalət Məhkəməsi dünyada 6 əsas qurumdan biridir. Beynəlxalq Ədalət Məhkəməsi üçün qərarının icra olunması prinsipial məsələsidir. Yeni mexanizm yaradılıb. Qərarlarla bağlı 3 hakimdən ibarət komitə formalaşdırılıb. Qərarlar icra olunmadığı təqdirdə, Məhkəmənin sədrinə məlumat verilir. Ermənistana açıq şəkildə çağırış etdik ki, qərarlara riayət etsin və qarşıdurmaların qarşısını alsın. Ermənistanda türkofobiya, azərbaycanofobiya meyilləri var. Bu, gələcək nəsillər üçün önəmli məsələdir. Hesab edirik ki, konvensiya çərçivəsində əldə edilən ən böyük uğurlardan biri budur".

## Türkiyə istehsalı olan hərbi texnikanın ixrac edildiyi ölkələr sırasında Azərbaycan ilk üçlükdədir

Son illər Türkiyənin müdafiə sənayesi sektorunun sürətli inkişafı, ölkənin terrorla mübarizədə və daxili təhlükəsizlik əməliyyatlarında istifadə etdiyi milli silahlar dünyada qardaş ölkədə istehsal olunan hərbi texnikaya marağı artırıb. Belə ki, cari ilin 11 ayında 2 milyard 793 milyon 974 min ABŞ dolları məbləğində gəlirlə Türkiyənin müdafiə və aerokosmik sənayesi yeni ixrac rekorduna imza atıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə İxracat Məclisi (TİM) məlumat yayıb.

Ölkənin müdafiə sənayesi sektorunun milli məhsulların satışından əldə etdiyi gəlir 2018-ci ildə 2 milyard 35 milyon 956 min, 2019-cu ildə isə 34,6 faiz artımla 2 milyard 740 milyon 988 min dollar təşkil edib. Bu rəqəm o dövrdə ölkənin müdafiə və aerokosmik sənayenin ixrac rekordu kimi qeydə alınıb.

COVID-19 pandemiyasının təsiri ilə sektorun ixracat gəliri 2020-ci ildə 16,8 faiz azalaraq 2 milyard 279 milyon 27 min dollar təşkil etsə də, bu rəqəm cari ilin 11 ayında rekordu yeniləyərək 2 milyard 793 milyon 974 min dollar olub.

TİM-in məlumatında bu ilin yanvar-noyabr ayları ərzində Türkiyənin milli hərbi texnikasının ixrac edildiyi ilk 20 ölkənin adı sadalanır. Siyahıda sıralamaya görə ABŞ, Azərbaycan, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya, Ukrayna, Efiopiya, Mərakeş, Fransa, Tunis, Banqladeş, Birləşmiş Krallıq, Hindistan, Türkmənistan, Çin, Özbəkistan, Ruanda, Hollandiya, İordaniya və Kanada yer alır.

Qeyd edilən dövr ərzində əvvəlki illərdə olduğu kimi, 1 milyard 32 milyon 615 min dolarla ABŞ ilk sıradadır. İkinci sırada isə Azərbaycan yer alır. Məlumata əsasən, bu ilin 11 ayı ərzində Türkiyədən Azərbaycana 192 milyon 126 min dollarlıq ixracat həyata keçirilib. Üçüncü sırada isə 180 milyon 544 min dollar məbləğində ixracatla Qətər yer alır.

# İdman

## Azərbaycan gimnastı Nazənin Teymurova Polşada qızıl medal qazanıb



Polşanın Zabrze şəhərində qadın idman gimnastikası üzrə "Barborka Cup-2021" adlı beynəlxalq turnir keçirilib.

Turnirdə ölkəmizi Nazənin Teymurova, Məryəm Musayeva və Duyğu Məcidzadə təmsil ediblər. Gənclər arasında iştirak edən N.Teymurovanın çıxışı uğurlu olub. O, çoxnövçülükdə hakimlərdən 48.665 xal alaraq, fəxri kürsünün birinci pilləsində qərarlaşıb.

Onun komanda yoldaşları Duyğu Məcidzadə və Məryəm Musayeva çoxnövçülük yarışında müvafiq olaraq 6-cı və 9-cu yerlərdə qərarlaşıblar.

## Şahmatçılarımız İspaniyada beynəlxalq turnirdə iki qələbə qazanıblar



İspaniyanın Barselona şəhərində keçirilən beynəlxalq şahmat turnirində səkkizinci turun oyunları keçirilib.

Turnirdə Azərbaycan təmsilçiləri Məhəmməd Muradlı və Aydın Süleymanlı rəqibləri üzərində qələbə qazanıblar. Digər təmsilçimiz Eltac Səfərli isə uduzub.

Ötən turların nəticəsinə görə, xallarının sayını 6-ya çatdıran M.Muradlı liderdən cəmi yarım xal geri qalır. E.Səfərli 5,5 xalla 13-cü, A.Süleymanlı 5 xalla 23-cüdür.

## Cüdo üzrə Azərbaycan kubokunun ikinci yarış gününün qalibləri müəyyənləşib



Cüdo üzrə Fövqəladə Hallar Nazirliyinin Hövsan qəsəbəsində yerləşən "Xilasedici" İdman-Sağlamlıq Mərkəzində keçirilən Azərbaycan kuboku davam edir.

Turnirin ikinci günündə 4 çəki dərəcəsi üzrə qarşılaşmalar keçirilib. Belə ki, qadınlar 52, 70 kiloqram, kişilər isə 66 və 90 kiloqram çəki dərəcələrində güclərini sınayıblar. Qadınlar arasında Səbinə Əliyeva (52 kq, "Təhsil" İdman Sağlamlıq Mərkəzi, Sumqayıt şəhəri) və Günel Həsənli ("Zirvə" İdman Klubu, Abşeron) qalib adına layiq görülüblər. Kişilərin yarışında isə Kəramət Hüseynov (66 kq, "Qəbələ" İdman Klubu, Bakı), Rüfət İsmayılov (90 kq, "Cüdo Klubu 2012") fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

## Azərbaycan çempionatında yunan-Roma güləşi yarışlarına yekun vurulub



Dekabrın 8-də Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatının ikinci gününə yekun vurulub.

Yarış günündə yunan-Roma güləşində son 3 çəkidə, sərbəst güləşdə isə 4 çəkidə medalçılar müəyyənləşib.

Yunan-Roma güləşi yarışlarında İslam Abbasov (87 kq), Orxan Nuriyev (97 kq) və Sərxan Məmmədov (130 kq) qızıl medala sahib olublar.

Sərbəst güləşçilərin mübarizəsində isə Əfqan Xaşalov (57 kq), İslam Bazarqanov (61 kq), Zirəddin Bayramov (65 kq) və Davud İbrahimov (70 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qeyd edək ki, ölkədə davam edən karantin rejimi ilə əlaqədar olaraq Azərbaycan çempionatı azarkeşsiz keçirilir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 789
Nüsxə 4044